


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 17 (23.429)

*29 yanvar 2020-ci il, çərşənbə*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Bəstəkar Məmməd Məmmədovun 100 illik yubileyinin keçirilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin

## Sərəncamı

2020-ci il aprelin 28-də bəstəkar Məmməd Qəzənfər oğlu Məmmədovun anadan olmasının 100 illiyi tamam olur.

Məmməd Məmmədov Naxçıvanda musiqi sənətinin və təhsilinin inkişafına xidmət etmiş, bir çox ansambl və xor kollektivlərinin yaradılmasının təşəbbüskarı olmuşdur. Onun 1956-cı ildə yaratdığı "Əlvan çiçəklər" mahnı və rəqs ansambLı muxtar respublikada musiqi və rəqs mədəniyyətinin inkişafında mühüm mərhələ təşkil edir.

Bəstəkar kamera-instrumental musiqinin bir çox janrlarında əsərlər, nəfəsli alətlər orkestri üçün marşlar, pyeslər, fortepiano üçün mahnı və romanslar yazmış, xalq mahnı və rəqslərini toplayaraq nota köçürmüş, Naxçıvan Dövlət Musiqili Dram Teatrında hazırlanan 30-dan artıq tamaşaya musiqi bəstələmişdir.

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq, musiqi sənətinin inkişafında xidmətləri olmuş bəstəkar Məmməd Məmmədovun 100 illik yubileyinin keçirilməsini təmin etmək məqsədilə **qərara alıram:**

1. Bəstəkar Məmməd Məmmədovun 100 illik yubileyi Naxçıvan Muxtar Respublikasında keçirilsin.
2. "Bəstəkar Məmməd Məmmədovun 100 illik yubileyinin keçirilməsi ilə əlaqədar Tədbirlər Planı" təsdiq edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 28 yanvar 2020-ci il*

## Babək Rayon Baytarlıq İdarəsinin yeni binası istifadəyə verilmişdir

Yanvarın 28-də Babək Rayon Baytarlıq İdarəsinin yeni binasının açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.

Naxçıvan Muxtar Respublikası baş nazirinin birinci müavini Elşad Əliyev çıxış edərək demişdir ki, aqrar sahədə sistemli şəkildə həyata keçirilən kompleks islahatlar və göstərilən dövlət dəstəyi nəticəsində muxtar respublikada əhalinin kənd təsərrüfatı məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsi təmin edilmişdir. Ətsüd emalı müəssisələrinin yaradılması muxtar respublikanın bütün rayonlarında əhalinin əsas məşğulluq sahəsi olan heyvandarlığın inkişafına səbəb olmuşdur. 2019-cu ildə muxtar respublikada heyvandarlıq sahəsinə 9 milyon 982 min manatdan artıq kredit verilmişdir. Hazırda muxtar respublikada 115







min 620 baş iribuynuzlu, 704 min 57 baş xırdabuynuzlu heyvan, 1 milyon 307 min baş quş və 99 min 798 arı ailəsi saxlanılır. Yeni baytarlıq idarələri və məntəqələrinin tikilməsi, laboratoriyaların qurulması, süni mayalanmanın tətbiqi heyvandarlığın, arıçılığın və quşçuluğun inkişafına səbəb olmuşdur. Muxtar respublikada biotəhlükəsizliyin qorunması da diqqətdə saxlanılmış, Dövlət Baytarlıq Xidməti dərman və bioloji preparatlarla təchiz olunmuş, profilaktika məqsədilə peyvəndləmə, dezinfeksiya işləri aparılmış, epizootiya əleyhinə ardıcıl tədbirlər görülmüşdür.

Babək Rayon Baytarlıq İdarəsinin rəisi Cəlal Həsənov kollektiv adından minnətdarlıq edərək demişdir: Muxtar respublikada hər bir sahədə olduğu kimi, baytarlıq xidmətində də əsaslı inkişafa nail olunmuşdur. Babək Rayon Baytarlıq İdarəsinin inzibati binasının istifadəyə verilməsi bu tədbirlərin davamıdır. Binada işçilər üçün nümunəvi iş şəraiti yaradılmış, həmçinin analizləri yüksək səviyyədə aparmaq üçün müasir avadanlıqlarla təchiz edilmiş laboratoriya qurulmuşdur. Hazırda rayon ərazisində epizootik vəziyyət tam sağlamdır. Yaradılan şəraitdən səmərəli



istifadə edərək bundan sonra da qarşıya qoyulan vəzifələri uğurla yerinə yetirəcəyik.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Babək Rayon Baytarlıq İdarəsinin yeni binasının istifadəyə verilməsi münasibətilə kollektivi təbrik edərək demişdir: Bu gün ölkəmizdə kənd təsərrüfatının inkişafı sahəsində həyata keçirilən tədbirlər ərzaq təhlükəsizliyini təmin etmişdir. Kənd təsərrüfatının inkişafında əsas sahələrdən biri də baytarlıq təbabəti və baytarlıq xidmətinin təşkildir. Çünki bu sahədə lazımi şəraitin yaradılması, müasir avadanlıqların alınması, eləcə də kadrlarla təminat heyvandarlığın, quşçuluğun və arıçılığın inkişafına şərait yaradır.

Ali Məclisin Sədri demişdir: Muxtar respublikada baytarlığın inkişafı üçün lazımi tədbirlər görülür. Naxçıvan Dövlət Universitetində və Naxçıvan Dövlət Texniki Kollecində müvafiq ixtisaslar fəaliyyət göstərir. Həmçinin baytarlıq idarələri və məntəqələri üçün lazımi iş şəraiti yaradılır, süni mayalanmanın tətbiqi ilə bağlı tədbirlər görülür. Epizootik tədbirlərin görülməsi üçün dərmanlarla təminat vaxtında həyata keçirilir. Görülən işlərin nəticəsidir ki, muxtar respublikada bu sahədə sabitlik vardır. Hər bir ölkənin müstəqil yaşaması üçün ərzaq təhlükəsizliyinin təmin olunması vacib məsələdir. Baytarlıq xidmətinin düzgün təşkili də həm əhalinin təsərrüfatının, əmlakının qorunmasına, həm də ərzaq təhlükəsizliyinin təmin olunmasına, insanların sağlamlığına, onların keyfiyyətli heyvandarlıq, quşçuluq və arıçılıq məhsulları ilə təminatına imkan verir. Hazırda ölkəmizdə bu məsələyə xüsusi diqqət yetirilir.

Qeyd olunmuşdur ki, kənd təsərrüfatının inkişafı bu gün qarşıda duran əsas vəzifələrdəndir. Naxçıvan Muxtar Respublikası kənd təsərrüfatı rayonudur. Əhalinin 70 faizi kəndlərdə yaşayır və bu sahə ilə məşğul olur. Bu da baytarlıq xidmətinin təşkilini zəruri edir. Çünki mal-qaranın normal artımı və sağlamlığı təmin olunmasa, bu sahəyə maraq da azalar, ərzaq təhlükəsizliyinin təmin olunmasında çətinliklər yaranar. Ona görə də baytarlıq xidmətinin təşkili qarşıda duran əsas vəzifələrdəndir. Bu vəzifələrin icrası üçün lazımi şərait yaradılmışdır. Babək rayonu muxtar respublikanın böyük yaşayış məntəqələrindəndir. Kənd təsərrüfatının əkinçilik, heyvandarlıq, arıçılıq, quşçuluq sahələri rayonda inkişaf etdirilir. Hazırda rayonda 15 mindən yuxarı iribuynuzlu, 143 minə yaxın xırdabuynuzlu heyvan, 330 minə yaxın quş, 15 minə yaxın arı ailəsi saxlanılır. Rayonda süni mayalanma işi də yaxşı təşkil olunmuşdur. Belə ki, təsərrüfatlarda saxlanan 15 mindən artıq iribuynuzlu heyvanın 9 faizi bir il ərzində süni mayalanma yolu ilə alınmış

*Ardı 2-ci səhifədə*

cins buzovlardır. Bu da göstərir ki, bir neçə il ərzində rayonda mal-qaranın cins tərkibi tamamilə dəyişiləcəkdir.

"Baytarlıq xidmətinin təşkili fədakarlıq və zəhmət tələb edir. Muxtar respublikada epizootik tədbirlərin vaxtında həyata keçirilməsinin nəticəsidir ki, heyvanlar arasında infeksion xəstəliklər yoxdur", – deyən Ali Məclisin Sədri kollektivin timsalında muxtar respublikanın bütün baytarlıq təbabəti xidmətinin əməkdaşlarına təşəkkürünü bildirmiş, bundan sonra da Babək rayonunda heyvandarlığın, arıçılığın və quşçuluğun inkişafına xüsusi diqqət göstərilməsinin vacibliyini qeyd etmiş, kollektivə işlərində uğurlar arzulamışdır.

Sonra binaya baxış olmuşdur.

Məlumat verilmişdir ki, Babək Rayon Baytarlıq İdarəsi baytarlıq laboratoriyası, baytar sanitar ekspertiza laboratoriyası və 29 sahə baytar məntəqəsini əhatə edir. Bina zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarətdir. Zirzəmidə parazitologiya, bakteriologiya şöbələri, dərman və boyaq maddələrinin saxlanc otağı, yeməkxana, anbar və qazanxana vardır. Birinci mərtəbədə iş otaqları, ikinci mərtəbədə 2 baytar həkimi otağı, sahə baytar məntəqəsi və texniklər üçün otaqlar, süni mayalanma avadanlıqlarının saxlanc otağı, arxiv və 26 yerlik iclas zalı yerləşir.

Baytarlıq İdarəsi mikroskop, termostat, distilyator, sentrafuqa, sterilizator, analiz aparatları, maye azot tankı, süni mayalanma çantası və digər lazımi avadanlıqlarla təmin olunmuşdur.

Həyətdə abadlıq işləri aparılmış, yaşıllıqlar salınmış, suvarma və işıqlandırma sistemləri, eləcə də yandırma quyusu qurulmuşdur.

Ali Məclisin Sədri baytarlıq sahəsində Dövlət Proqramının hazırlanması və xidmətin təşkilində maarifləndirməyə diqqətin artırılması barədə aidiyyəti üzrə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatının şura iclası keçirilib



***Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatında 2019-cu il ərzində görülmüş işlərin yekunları, qarşıda duran vəzifələrlə bağlı keçirilən şura iclasında təşkilatın sədri Arif Qasımov hesabat məruzəsi ilə çıxış edib.***

Bildirib ki, ölkəmizin bugünkü inkişafında Yeni Azərbaycan Partiyasının böyük xidmətləri var. Əsası ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulan siyasi kurs hazırda ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir, bu siyasətin nəticəsində ölkəmiz güclü dövlətə çevrilib.

Qeyd olunub ki, yüksək inkişaf yolunda inamla addımlayan Naxçıvan Muxtar Respublikasında da əldə olunan nailiyyətlər ulu öndərin yolunun və ideyalarının uğurla davam etdirilməsinin bariz ifadəsidir. İnkişaf və tərəqqiyə qovuşan Sədərək rayonu da həyata keçirilən quruculuq tədbirləri nəticəsində başdan-başa abadlaşıb, infrastruktur ən müasir səviyyədə yenidən qurulub, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi istiqamətində mühüm işlər görülüb.

Qeyd olunub ki, partiya üzvlərinin qarşısında duran əsas vəzifələr qazanılan uğurları təbliğ etməkdən, əhali arasında ideya-siyasi işi gücləndirməkdən ibarət olmalıdır. Hər bir partiya üzvü Proqram və Nizamnamənin tələblərinə, prinsiplərinə əməl etməli, siyasi proseslərdə, rayonda gedən quruculuq-abadlıq işlərində, yaşıllaşdırma tədbirlərində və qarşıya qoyulan digər vəzifələrin həyata keçirilməsində fəallıq göstərməlidir. Təşkilati işlər bundan sonra da diqqət mərkəzində saxlanılmalı, vətənpərvər, ictimai işlərdə fəal və təşəbbüskar gənclərin partiya sıralarına cəlb edilməsinə nail olunmalıdır.

Vurğulanıb ki, təşkilatın idarə heyətinin 12, şurasının 4 iclası keçirilib. Ötən dövr ərzində partiya sıralarına qəbulda keyfiyyət tərkibinin yaxşılaşdırılmasına böyük önəm verilib. Hesabat dövründə rayon partiya təşkilatının sıralarına 75 nəfər üzv qəbul edilib. Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatının əhatə etdiyi 23 ərazi ilk partiya təşkilatının qeydiyyatında 1597 üzv var. Onlardan 341-i qadın, 423-ü isə gəncdir.

Təşkilat sədri diqqətə çatdırıb ki, qarşıdan Azərbaycan Respublikası Milli Məclisinə və Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər gəlir. Göstərilən diqqət və qayğıya əməli işimizlə cavab verməklə 9 fevral 2020-ci il tarixdə keçiriləcək seçkilərdə fəal iştirak etməliyik.

Sonra məruzə ətrafında çıxışlar olub.

Şura iclasında müzakirəyə çıxarılan məsələ ilə əlaqədar qərar qəbul edilib.

**Sərxan İSMAYILOV**

## *"Məhkəmə könüllüləri"* layihəsi başa çatıb



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" və 2019-cu il 3 aprel tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" sərəncamları ilə dövlət orqanlarının üzərinə gənclərin potensialından daha səmərəli istifadə etmək, cəmiyyətin bütün sahələrində fəal iştiraklarına şərait yaratmaq, onlara peşə vərdişlərini aşılamaq və təcrübi biliklərini artırmaq, yaradıcı və innovativ potensiallarının üzə çıxarılmasını dəstəkləmək vəzifəsi qoyulub. Bu məqsədlə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi Naxçıvan Dövlət Universitetinin Hüquqşünaslıq ixtisasında təhsil alan tələbələr arasında könüllülük fəaliyyətini tətbiq etməyə başlayıb. 2019-cu il noyabr ayının 5-dən etibarən həmin ixtisasın 3-cü, 4-cü kurs tələbələri və magistrantları "Məhkəmə könüllüləri" layihəsi çərçivəsində üç ay müddətində Ali Məhkəmədə könüllü fəaliyyət göstəriblər. Tələbələr bu müddət ərzində qruplara bölünərək şöbələrdə hakimlərin iş təcrübəsini öyrənib, məhkəmə tərəfindən qəbul olunan qərarlarla tanış olub, məhkəmə iclaslarında və vətəndaşların qəbulunda bilavasitə iştirak ediblər. Layihə çərçivəsində tələbələr "Elektron məhkəmə" sistemi ilə də yaxından tanış olublar. Onlar üçün Ali Məhkəmədə müxtəlif hüquqi mövzularda seminarlar və səhnələşdirilmiş mülki məhkəmə icraatı üzrə məhkəmə prosesləri də təşkil edilib.

Layihənin sonuncu günü Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Qasım Əliyev tələbələrlə görüşüb. O, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında aparılan hüquqi islahatların tərkib hissəsi kimi hüquq-mühafizə orqanlarında çalışacaq yüksək peşəkarlığa malik, layiqli və humanist kadrların formalaşdırılmasının vacibliyini vurğulayıb. Qasım Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamlarının gələcəyin fəal, təşəbbüskar, vətənpərvər ruhlu kadrlarının yetişdirilməsi istiqamətində atılmış əhəmiyyətli addımlardan biri olduğunu bildirib.

Ali Məhkəmənin sədri gənclərə zəruri təcrübə toplamaları, milli və vətənpərvərlik ruhunda tərbiyə almaları, xalqa və dövlətə bağlılığı, müstəqilliyimizin möhkəmləndirilməsi, məhkəmə sistemində şəffaflığın artırılmasında fəal iştirak etmələri barədə tövsiyələr verib, həyata keçirilən tədbirlərin gələcəkdə də davam etdiriləcəyini diqqətə çatdırıb.

Sonda tələbələri maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası***
***Ali Məhkəməsinin mətbuat xidməti***

## *"Qadınların Dayanıqlı İnkişaf üçün Səlahiyyətləndirilməsi"* layihəsinin bağlanış mərasimi olub

***Dünən "Duzdağ" otelində Avropa İttifaqının maliyyələşdirdiyi və BMT İnkişaf Proqramının icra etdiyi "Dayanıqlı İnkişaf Məqsədlərinin gender həssaslı icrasında vətəndaş cəmiyyətinin rolunun artırılması" layihəsi çərçivəsində həyata keçirilən "Qadınların Dayanıqlı İnkişaf üçün Səlahiyyətləndirilməsi" layihəsinin rəsmi bağlanış mərasimi olub.***



Tədbirdə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxış edərək muxtar respublikada uğurla aparılan dövlət qadın siyasətinin əhəmiyyətindən, qadınların sahibkarlıq fəaliyyətindən danışıb. Bildirib ki, hazırda Naxçıvanda qeydiyyata alınmış 940 ailə təsərrüfatının 67-si qadınlar tərəfindən idarə olunur. Ailə təsərrüfatlarının yaradılması qadınların məşğulluğunun təmin olunması ilə yanaşı, onların mikro və makro sahibkarlara çevrilməsində əsas faktordur. Hazırda muxtar respublikada qadın sahibkarların sayı 6000-dən artıqdır.

Qeyd olunub ki, muxtar respublikada qadın sahibkarlığının inkişafı ilə bağlı genişmiqyaslı tədbirlər həyata keçirilir. 2019-cu il ərzində "Qadınların Dayanıqlı İnkişaf üçün Səlahiyyətləndirilməsi" layihəsi belə tədbirlər içərisində mühüm yer tutub. 12 ay ərzində davam edən layihə çərçivəsində muxtar respublikada bir sıra fəaliyyət növləri həyata keçirilib.

Ramilə Seyidova bu layihənin yüksək səviyyədə, uğurla reallaşdırılmasına göstərdiyi diqqət, qayğı və dəstəyə görə layihə iştirakçıları adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

Azərbaycan Mikromaliyyə Assosiasiyasının İdarə Heyətinin (AMFA) sədri Cəlal Əliyev çıxış edərək Avropa İttifaqının və BMT İnkişaf Proqramının dəstəyi ilə həyata keçirilən "Qadınların Dayanıqlı İnkişaf üçün Səlahiyyətləndirilməsi" layihəsi barədə ətraflı məlumat verib. Qeyd edib ki, layihə yeni nəsil maliyyə savadlılığı olan sahibkarların yetişməsinə öz töhfəsini verib. Bu isə, öz növbəsində, maliyyə institutlarının uzunmüddətli, gələcəkdə uğurlu fəaliyyət göstərməsinə, kiçik və orta bizneslərin daha təkmil, böyük bizneslərə çevrilməsinə təkan verəcəkdir. Layihənin icra müddətində Naxçıvan Muxtar Respublikasında və İsmayıllı rayonunda yaşayan qadınlara, o cümlədən sağlamlıq imkanları məhdud şəxslərə olanlara məşğulluq imkanları yaradılıb.

Vurğulanıb ki, Azərbaycan Mikromaliyyə Assosiasiyası bu layihə çərçivəsində maarifləndirmə istiqamətində qadın sahibkarlarla iş aparıb. Onların maliyyə savadlılığı, biznesin idarə edilməsi sahəsində bilik və bacarıqları artırılıb. İnanırıq ki, bu layihə Azərbaycanda qadın sahibkarlığının inkişafına töhfə verəcək, onları bu sahə ilə məşğul olmağa daha da həvəsləndirəcək.

Cəlal Əliyev layihənin həyata keçirilməsində böyük zəhməti və dəstəyi olan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova minnətdarlığını bildirib.

Azərbaycan Mikromaliyyə Assosiasiyasının layihə meneceri Sevinc Rüstəmova çıxışında qeyd edib ki, "Qadınların Dayanıqlı İnkişaf üçün Səlahiyyətləndirilməsi" layihəsi Naxçıvan Muxtar Respublikasında və İsmayıllı rayonunda yaşayan 390 qadını əhatə edib. Bunlardan 47 nəfəri sağlamlıq imkanları məhdud qadınlar, digərləri aztəminatlı ailələrdəndir. 390 qadından 319 nəfəri Naxçıvan Muxtar Respublikasından, 71 nəfəri isə İsmayıllı rayonundan olub. Bu qadınlar "Gələcəyini planlaşdır" maliyyə savadlılığı üzrə "Öz bizensinə başla və inkişaf etdir" təlimlərində iştirak edib və öz biznes ideyalarını biznes planlarda əks etdirməyi öyrəniblər. Uğurlu biznes-plan tərtib edən 78 qadına (o cümlədən 13 sağlamlıq imkanları məhdud qadına) öz ideyalarını reallaşdırmaq üçün sərmayə kapitalı verilib. Sərmayə kapitalının 75 faizi kənd təsərrüfatı, 25 faizi isə xalçaçılıq, toxuculuq, konservləşdirmə, təhsil və xidmət sahələrinə yönəldilib. Layihə çərçivəsində, həmçinin Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzi əməkdaşlarının maliyyə savadlılığı sahəsində bilik və bacarıqlarını təkmilləşdirmək məqsədilə təlimlər keçirilib. Təlimdə 17 nəfər iştirak edib və onlardan gələcəkdə maliyyə savadlılığı üzrə təlim keçmək üçün 10 nəfər seçilib. Sevinc Rüstəmova bildirib ki, layihə iştirakçıları digər qadınlara örnək olacaq, sahibkar qadınların sayı ildən-ilə artacaq.

BMT İnkişaf Proqramının Azərbaycan üzrə proqram meneceri Vüsal Behbudov, Azərbaycan Mikromaliyyə Assosiasiyasının icraçı direktoru Jalə Hacıyeva, layihə iştirakçısı Aygün Bayramova çıxış edərək layihənin əhəmiyyətindən danışıb, onun həyata keçirilməsindəki dəstəyə görə minnətdarlıq ediblər.

Sonda layihə ilə bağlı videoçarxa, layihə iştirakçısı olan qadınların hazırladıqları əl işlərindən ibarət sahibkarlıq sərgisinə baxış olub.

**Güntac ŞAHMƏMMƏDLİ**

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 29 mart tarixli Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın

## Özünüməşğulluqla bağlı növbəti tədbir

icrası aztəminatlı ailələrin, cəzaçəkmə müəssisələrindən azad edilmiş, habelə sağlamlıq imkanları məhdud şəxslərin özünüməşğulluğunun təmin edilməsi istiqamətində sosial layihələrin icrasına əlverişli zəmin yaradıb.

Bu istiqamətdə həyata keçirilən tədbirlərin davamı olaraq fərdi təsərrüfatların yaradılmasına köməklik göstərilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən muxtar respublika üzrə, ümumilikdə, 21 aztəminatlı ailə müəyyənləşdirilib və 19 nəfərə yanında balası olan iribuynuzlu, 2 nəfərə yanında balası olan 10 baş xırdabuynuzlu heyvan verilib.

Bununla əlaqədar keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Nicat Babayev muxtar respublikada aztəminatlı ailələrə göstərilən dövlət qayğısı, onların məşğulluğunun təmin olunması istiqamətində görülən işlər barədə danışıb. Qeyd edilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası çərçivəsində özünüməşğulluğa cəlb olunmuş ailələrin təsərrüfatlarında qısa müddət ərzində artımlar olub ki, bu da onların sosial rifah halının yaxşılaşmasına müsbət təsir göstərib.

Sonra aztəminatlı ailə təmsilçilərinə verilən aktivlərlə bağlı sənədlər təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası***
***Əmək və Əhalinin Sosial Müdafiəsi***
***Nazirliyinin mətbuat xidməti***

*Tariximizin səhifələrindən*

# Naxçıvan – qədim diyar

***Naxçıvanda qədim dövrlərdən insanların məskunlaşması üçün əlverişli şərait olmuşdur. Ordubad rayonunun Gilançay vadisində aşkar olunan qədim daş alətlər insanların, təqribən, 2-1 milyon il bundan əvvəl burada məskunlaşdığını təsdiq edir. 1991-ci ildə Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra Azərbaycan, o cümlədən Naxçıvan abidələrinin öyrənilməsində yeni mərhələ başlanıb. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin tövsiyəsi ilə Azərbaycan tarixi milli konsepsiya əsasında yenidən işlənib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun arxeoloji abidələrin öyrənilməsinə qayğısı bu sahədə mühüm işlərin görülməsinə səbəb olub.***

Muxtar respublika ərazisində qədim Daş dövrünə aid yalnız bir neçə daş alət və nukleuslar vardır. Belə tapıntılar Xaraba Gilan, Ovçular təpəsi, Şahtaxtı, Kilitdən aşkar olunub. Bu dövrün geniş qazıntılarla öyrənilmiş abidəsi hələlik Qazma mağarasıdır. Mağarada aparılan araşdırmalar ağıllı insanın formalaşdığı dövrü öyrənmək üçün qiymətli materiallar verib.

Naxçıvanın Cənubi Qafqazı Yaxın Şərqlə bağlayan qədim yolların kəsişmə nöqtəsində yerləşməsi bölgənin iqtisadi-mədəni inkişafında mühüm rol oynayıb. Arxeoloji araşdırmalara əsasən demək olar ki, bu bölgədə formalaşan qədim mədəniyyətlər, xüsusilə Şərqi Anadolu, İrəvan, Urmiya hövzəsi və Qarabağla sıx bağlı olub. İndiyədək Cənubi Qafqazda Neolit, Eneolit və Erkən Tunc dövrlərinə aid ən qədim abidələr Naxçıvanda aşkar olunub. Bu abidələrin öyrənilməsinə XIX əsrin 70-ci illərindən başlanılıb. Araşdırmalar təsdiq edir ki, Naxçıvanın Cənubi Qafqaz və Yaxın Şərq ölkələri ilə əlaqələri qədim dövrlərdən mövcud olub, eramızdan əvvəl VII-VI minilliklərdə daha da intensivləşib.

Hazırda Naxçıvanda bir neçə arxeoloji ekspedisiya, o cümlədən iki beynəlxalq ekspedisiya fəaliyyət göstərir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşması işinin təşkili haqqında" 2005-ci il 6 dekabr tarixli Sərəncamından sonra bu sahəyə diqqət daha da artırılıb. AMEA Naxçıvan Bölməsi və Naxçıvan Dövlət Universiteti əməkdaşlarının birgə apardığı məqsədyönlü tədqiqatlar nəticəsində muxtar respublika ərazisində 1200-dən artıq tarix və mədəniyyət abidəsi qeydə alınıb. Həmin abidələr Naxçıvanın qədim və orta əsr tarixinin öyrənilməsi üçün dəyərli mənbələrdir.

Adıçəkilən sərəncam əsasında 2006-2007-ci illərdə Naxçıvanın tarix və mədəniyyət abidələri qeydə alınaraq pasportlaşdırılıb və tədqiqatların yekunları ilə bağlı "Naxçıvan Abidələri Ensiklopediyası" çap olunub. Aparılan tədqiqatlarla bağlı konfranslar keçirilib, məqalələr yazılıb. Lakin onların ümumiləşdirilib konkretləşməsinə olduqca böyük ehtiyac vardır. Bu məqsədlə Beynəlxalq Azərbaycan-Fransa arxeoloji ekspedisiyası 2006-2013-cü illərdə Ovçular təpəsi, Duzdağ, 2014-2017-ci illərdə I Kültəpə, Duzdağ, Zirincli, Uçan ağıl, Uzunoba yaşayış yerlərində araşdırmalar aparıb, həmçinin Naxçıvanın dağlıq və dağ ətəklərindəki onlarla yeni abidə tədqiqata cəlb edilib.

2011-ci ildə aparılan araşdırmalar zamanı Sədərək yaşayış yerindən Neolit dövrünə aid daş toxa aşkar olunub. 2014-2017-ci illərdə həmin arxeoloji ekspedisiyanın araşdırmaları nəticəsində Babək rayonunda yerləşən I Kültəpə abidəsinin alt təbəqəsinin Neolit dövrünə aid olduğu müəyyən edilib.

Naxçıvanda istehsal təsərrüfatının formalaşması, inkişafı və qədim mədəniyyətlərimizin Şərq ölkələri ilə əlaqələrinin öyrənilməsi üçün Neolit və Eneolit abidələrinin tədqiqinin mühüm əhəmiyyəti vardır. Arxeoloji qazıntılarla Neolit dövrünün sonuna aid maddi mədəniyyət qalıqları yalnız I Kültəpə abidəsində öyrənilib. Bu yaşayış yerindən aşkar olunan keramika nümunələrinin paralelləri



*I Kültəpə yaşayış yerinin arxeoloji tədqiqi zamanı aşkar olunmuş tapıntılar*

Cənubi Qafqaz və Urmiya hövzəsinin abidələrindən məlumdur. Araşdırmalar nəticəsində məlum olub ki, I Kültəpə yaşayış yeri Cənubi Qafqazın ən qədim Neolit abidəsidir. Bu yaşayış yerində aparılan arxeoloji qazıntı işləri Son Neolit dövrünün ardıcıl mərhələlərini dövrləşdirməyə imkan verib. Araşdırmalar qədim Kültəpə sakinlərinin əkinçilik və maldarlıqla məşğul olduğunu, köçmə maldarlığın mənimsənildiyini təsdiq edir. I Kültəpədən aşkar olunan arxeoloji materiallar Son Neolit mədəniyyətinin xüsusiyyətlərini, insanların həyat tərzini izləməyə imkan verib.

2017-ci ildə Naxçıvan şəhəri ərazisində yerləşən Naxçıvantəpə yaşayış yerinin tədqiqi zamanı Naxçıvantəpədə Dalmatəpətipli keramika məmulatının aşkar olunması bu mədəniyyətin yayılma arealının Naxçıvanı da əhatə etdiyini təsdiq edib. Daha doğrusu, Naxçıvan bu mədəniyyətin formalaşdığı areala daxil



*Qızqala yaşayış yeri və nekropolunun tədqiqi zamanı aşkar olunmuş tapıntılar*

olub. Şübhəsiz ki, gələcək araşdırmalar Urmiya hövzəsi və Naxçıvan tayfaları arasındakı əlaqələrin və qarşılıqlı münasibətlərin xarakterini daha aydın şəkildə müəyyən etməyə, Dalmatəpə mədəniyyətinin yaranması və formalaşması ilə bağlı məsələləri aydınlaşdırmağa imkan verəcəkdir.

Eneolit dövrünün erkən və orta mərhələsinin öyrənilməsi I Kültəpə və onun ətrafındakı yaşayış yerlərinin tədqiqi ilə mümkün olub. Bu abidələrin aşkarlanması Son Neolit və Eneolit mədəniyyəti arasındakı əlaqələri, həmçinin Eneolit mədəniyyətinin müxtəlif mərhələlərini müəyyənləşdirməyə imkan verib. İndiyədək Cənubi Qafqazda məlum olmayan Erkən Eneolit mədəniyyəti məhz Kültəpə ətrafında yerləşən Naxçıvantəpə, Bülövqaya, Uzunoba və Uçan ağıl yaşayış yerlərinin tədqiqi nəticəsində üzə çıxarılıb.

Ovçular təpəsində aşkar olunan arxeoloji materialların kompleksi onu "Ovçular təpəsi mədəniyyəti" adlandırmağa imkan verib. Burada tapılan, üzərində qabarıq keçi və qoyun təsvirləri olan gil qablar Naxçıvanda professional təsviri sənətin səkkiz min il tarixi olduğunu təsdiq edib. Sirab ərazisində aparılan araşdırmalar zamanı xeyli Eneolit abidəsinin aşkar olunması bu dövrə aid abidələrin Naxçıvanda geniş yayıldığını göstərdi. Bu abidələrdən Zirincli, Sərin bulaq, Yeni yol, Şorsu, Dəyirman yeri və digərləri arxeoloji araşdırmalarla öyrənilib. Bu zaman Naxçıvanda Eneolit mədəniyyətinin dörd inkişaf mərhələsindən keçdiyi müəyyənləşdirilib.

Araşdırmalar eramızdan əvvəl VI-IV minilliklərdə Naxçıvanda məskunlaşan qədim tayfaların məişətini, həyat tərzini, Şərq ölkələri ilə iqtisadi-mədəni əlaqələrini öyrənmək üçün zəngin material verib. I Kültəpənin Neolit təbəqəsindən aşkar olunan Xalaftipli boyalı qab Naxçıvanın qədim sakinlərinin Şimali Mesopotamiya ilə iqtisadi-mədəni əlaqələrini göstərir. Bir qrup tədqiqatçı arxeoloji materiallara əsaslanaraq müəyyən əhali qrupunun Şimali Mesopotamiyadan Naxçıvana gəldiyini deyib. Eneolit abidələrinin tədqiqi Mesopotamiyada formalaşan Ubeyd mədəniyyəti ilə olan əlaqələri də öyrənməyə imkan verir. Ola bilsin ki, bu mədəniyyətin təsiri ilə Naxçıvanda müəyyən tip boyalı keramika



*Duzdağda arxeoloji araşdırmalar*

məmulatı ortaya çıxıb. Ovçular təpəsində isə bir ədəd idxal malına da rast gəlinib. Ovçular təpəsi, Xələc, Şortəpə, Uçan ağıldan aşkar olunan boyalı keramikanın əksəriyyəti yerli istehsalın məhsuludur. Bu isə Eneolit mədəniyyətinin gətirilmədiyini, yerli istehsalın məhsulu olduğunu bir daha təsdiq edir. Həmin ərazidə aparılan araşdırmalar Eneolit dövrünün sonunda Naxçıvanda yaşayan tayfaların iqtisadi-mədəni və sosial həyatında baş verən dəyişiklikləri izləmək üçün dəyərli nəticələrdir. Araşdırmalar bu dövrdə ibtidai icma quruluşunun dağılma ərəfəsində olduğunu göstərir.

Naxçıvanın Neolit və Eneolit abidələrinin tədqiqi bu qədim diyarın tarixi coğrafiyası ilə bağlı maraqlı faktları da ortaya çıxarıb. Yaşayış yerlərindən aşkar olunan arxeoloji materialların bir qismi obsidian əmək alətlərindən ibarətdir. Həmin alətlərin hazırlanmasında şəffaf və qeyri-şəffaf obsidiandan istifadə olunub. Naxçıvanın qədim sakinləri obsidianı Göyçə gölü hövzəsində yerləşən Göyəm, Göyhasar yataqlarından və Naxçıvanın yaxınlığındakı Zəngəzurdan əldə ediblər. Göyçə gölü hövzəsindəki yataqlar Naxçıvanda yaşayan tayfaların nəzarətində olub. Naxçıvanın şimalında Sünikdə yerləşən yataqlardan çıxarılan obsidian Naxçıvan vasitəsilə Azərbaycanın Arazdan cənubda yerləşən bölgələrinə yayılıb. Araşdırmalar göstərir ki, Urmiya hövzəsinin yaşayış yerlərində və Mərənd Kültəpəsində başlıca olaraq Zəngəzur obsidianından istifadə edilib. Bu, göstərilən abidələrdə 90 faiz təşkil edir. Ehtimal ki, Şorsu çayı boyunda yerləşən çoxsaylı Eneolit abidələri ölkəmizin qədim sakinlərinin xammal mənbələrinə doğru irəlilədiyi yolu göstərir. Araşdırmalara əsaslanaraq demək olar ki, Naxçıvanın qədim tarixi coğrafiyası Göyçə hövzəsi daxil olmaqla, Qərbi Azərbaycanın böyük bir qismini və Arazdan cənubdakı əraziləri əhatə edib.

Arxeoloji tədqiqatlar zamanı muxtar respublika ərazisində Erkən Tunc dövrünə aid I Kültəpə, II Kültəpə, Ovçular təpəsi, I Maxta Kültəpəsi, II Maxta Kültəpəsi, Şortəpə, Sədərək və onlarla digər yaşayış yerləri, Dizə, Qarabulaq, Plovdağ və Xornu nekropolları kimi qəbir abidələri tədqiq edilib. Erkən Tunc dövrü abidələrindən aşkar olunan arxeoloji mədəniyyət "Kür-Araz mədəniyyəti" adlandırılıb. Naxçıvanın Kür-Araz mədəniyyəti abidələrinin tədqiqi bu mədəniyyətin mənşəyi, xronologiyası və inkişaf xüsusiyyətləri ilə bağlı bir sıra məsələlərə aydınlıq gətirib. Qafqaz, o cümlədən Azərbaycan arxeologiyasında mübahisəli olan bu məsələnin aydınlaşdırılmasında Naxçıvan abidələrinin müstəsna əhəmiyyəti olub.



*Ovçular təpəsi yaşayış yerinin arxeoloji tədqiqi zamanı aşkar olunmuş tapıntılar*

2006-2013-cü illərdə Ovçular təpəsində aparılan araşdırmalar eramızdan əvvəl V-III minilliklərdə Naxçıvanda yaşayan tayfaların həyat tərzini öyrənməyə imkan verib, Proto Kür-Araz mədəniyyətinin varlığı ortaya çıxarılıb, Kür-Araz mədəniyyətinin Son Eneolit mədəniyyətindən qaynaqlanaraq inkişaf etdiyi müəyyənləşib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təşəbbüsü ilə 2001-2005-ci illərdə Gəmiqaya abidəsinə arxeoloji səfər təşkil edilib, minlərlə qayaüstü təsvir qeydə alınıb.

Orta Tunc dövrünə aid arxeoloji abidələrin tədqiqi bu dövrdə Naxçıvanın Urmiya hövzəsi də daxil olmaqla, Azərbaycanın cənubu və Şərqi Anadolu ilə vahid iqtisadi-mədəni rayona daxil olduğunu göstərir. Bu dövrdə Naxçıvan boyalı qabları ilə fərqlənən Orta Tunc dövrü mədəniyyətinin mərkəzinə çevrilir. İqtisadiyyatın, xüsusilə sənətkarlıq və ticarətin inkişafı şəhərtipli yaşayış yerlərinin və şəhər-dövlətlərin formalaşması ilə nəticələnir. Naxçıvan ərazisindəki arxeoloji abidələr Yaxın Şərqdə formalaşan Orta Tunc dövrü mədəniyyətinin bir sıra xarakterik cəhətlərini müəyyən etməyə imkan verir. Orta Tunc dövründə Yaxın Şərqdən fərqli olaraq Naxçıvanda oturaq həyat fasiləyə uğramadan davam edir və qalatipli yaşayış yerləri meydana çıxır. Həmin dövrə aid Qızqala yaşayış yeri beynəlxalq Azərbaycan-ABŞ arxeoloji ekspedisiyası tərəfindən öyrənilib. Aparılan araşdırmaların yekununda Qızqalada Orta Tunc dövrünə aid 2, 5-3 metr qalınlığında mədəni təbəqənin varlığı müəyyən olunub. Bu, Naxçıvanda I Kültəpə, II Kültəpə və Qızılburundan sonra dördüncü mühüm abidədir. Bu yaşayış yeri boyalı qablarla fərqlənən Orta Tunc dövrü mədəniyyətinin Naxçıvanla bağlı olduğunu, bəzi abidələrdə müdafiə divarlarının aşkar edilməsi həmin dövrdə Naxçıvanda böyük hərbi potensiala malik olan tayfaların yerləşdiyini təsdiq edir. Bu tayfaların bir qismi oturaq, digər bir qismi yarımköçmə maldarlıqla məşğul olub. Qızqala ətrafındakı kurqanlardan skelet qalıqlarının aşkar olunması isə boyalı keramika ilə seçilən Orta Tunc dövrü mədəniyyətinin mənsubiyyəti və onun yaradıcıları haqqında yeni fikirlər deməyə imkan verəcəkdir.

2015-ci ilin ikinci yarısında bu abidələrin tədqiqi zamanı insan skeletlərinin dişlərindən götürülən izotopların analizi zamanı müəyyən olunub ki, Arpaçay vadisində məskunlaşan qədim tayfaların məskəni Naxçıvan olub. Eramızdan əvvəl II minilliyin ortalarında Yaxın Şərq və Cənubi Qafqazda baş verən ictimai-siyasi proseslər, tayfalararası ziddiyyətlərin artması Arpaçay vadisində, Şərur düzündə yaşayan tayfaları müdafiə mövqeyi tutmağa məcbur edib, yaşayış yerində iri daşlardan qala divarları inşa olunub. Bu tip qala divarlarına Cənubi Qafqazın digər Orta Tunc dövrü yaşayış yerlərində rastlanmaması Naxçıvanda yaşayan tayfaların regionun siyasi həyatında mühüm rol oynadığını göstərir.

Naxçıvanın Son Tunc və Erkən Dəmir dövrlərinə aid arxeoloji abidələri bu dövrdə Azərbaycanın cənub rayonlarında baş verən sosial-mədəni prosesləri, habelə şimal və cənub rayonları arasındakı iqtisadi-mədəni əlaqələri öyrənmək baxımından əhəmiyyətlidir. Araşdırmalar Son Tunc dövründə Naxçıvanda boyalı qablarla xarakterizə edilən mədəniyyətin davam etdiyini, eyni zamanda Azərbaycanın şimal rayonlarında yayılan Xocalı-Gədəbəy mədəniyyəti üçün xarakterik olan xüsusiyyətlərin bu əraziyə daxil olduğunu göstərir. Naxçıvan və Xudafərin ətrafında aparılan araşdırmalarda Xocalı-Gədəbəy mədəniyyətinin Azərbaycanın cənubuna doğru yayıldığını bir daha sübut edir.

Qeyd edək ki, Dəmir dövrünün inkişaf etmiş mərhələsinə aid abidələr bu dövrün siyasi və iqtisadi mənzərəsini aydınlaşdırmaq üçün ən dəyərli mənbələrdir. Həmin abidələr başlıca olaraq, Şərur və Ordubad rayonları ərazisindədir və dövrün xarakteristikasını vermək üçün qiymətli faktdır. Həmin abidələrdən biri də Oğlanqala yaşayış yeridir. Oğlanqalada aparılan tədqiqatlar eramızdan əvvəl IX-VI əsrlərdə buranın müstəqil dövlətin mərkəzi olduğunu və urartulara qarşı müvəffəqiyyətlə mübarizə apardığını göstərir. Arxeoloji dəlillərə əsasən demək olar ki, eramızdan əvvəl IV əsrdə Oğlanqala Atropatena dövlətinin əsas əyalət mərkəzlərindən biri olub.

Şərur rayonunda Qarasuqala, I Qızqala, Kəngərli rayonunda Yurdçu sərdabəsindən də bu dövrə aid maddi mədəniyyət nümunələri aşkar edilib.

Araşdırmalar zamanı Naxçıvan tarixinin Daş dövründən günümüzədək böyük bir zaman kəsiyində baş verən iqtisadi-mədəni proseslərini ardıcıl şəkildə izləmək mümkün olub, Naxçıvanda Neolit mədəniyyətinin mövcudluğu tamamilə təsdiq edilib, Eneolit mədəniyyətinin müxtəlif inkişaf mərhələlərindən keçərək formalaşdığı müəyyənləşdirilib. Naxçıvanda baş verən iqtisadi-mədəni proseslərin Urmiya hövzəsi və Şərqi Anadolu ilə sıx bağlılığı təsdiqlənib. Naxçıvan bu geniş ərazidə formalaşan Kür-Araz və Boyalı qablar mədəniyyətinin vətəni olub.

*Bütün bunlar bir daha deməyə əsas verir ki, müstəqillik illərində muxtar respublikamızda abidələrimizin tədqiqi ilə yanaşı, onların qorunması və bərpası ilə bağlı xeyli işlər görülüb. Naxçıvan Muxtar Respublikasında tarix və mədəniyyət abidələrinə göstərilən dövlət qayğısının günü-gündən artması tariximizin müxtəlif səhifələrinin öyrənilməsinə münbit şərait yaradır. Heç şübhəsiz ki, dövlətimizin qayğısı ilə tədqiqatlar daha da dərinləşəcək, tariximizin qaranlıq səhifələrinə işıq salınacaqdır.*

***Vəli BAXŞƏLİYEV***
***AMEA-nın müxbir üzvü***

## Ötən ilin yekunları və qarşıda duran vəzifələr müzakirə olunub



*Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasında ötən ilin yekunları və qarşıda duran vəzifələrlə bağlı yığıncaq olub.*

Tədbiri giriş sözü ilə açan federasiyanın sədri Fazil Ələkbərov yığıncağın gündəliyində duran məsələlərlə bağlı məlumat verib.

Sonra federasiyanın sədr müavini Nəriman Quliyevin 2019-cu ildə görülən işlər və keçirilən yarışlar barədə hesabatı dinlənilib.

Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman naziri Azad Cabbarov Ali Məclis Sədrinin rəhbərliyi altında muxtar respublikamızda aparılan uğurlu idman siyasətindən danışıb.

Vurğulanıb ki, Gənclər və İdman Nazirliyi 2019-cu il ərzində kütləvi bədən tərbiyəsi və idman sahəsi üzrə 386 tədbir keçirib. Ümumilikdə, muxtar respublikadan kənar yarışlarda 369 medal qazanılıb.

Qeyd edilib ki, muxtar respublikada uğurla fəaliyyət göstərən idman federasiyalarından biri də 2002-ci ildə yaradılan Karate-do Federasiyasıdır. Hazırda Naxçıvanda 20 bölmədə 600-ə yaxın şəxs bu idman növü ilə məşğul olur. Gənclər və İdman Nazirliyi federasiya ilə birgə karate-do idman növünü inkişaf etdirmək və kütləviliyinin təmin olunması məqsədilə çoxsaylı tədbirlər reallaşdırıb. Belə ki, ötən il ərzində karate-do üzrə 2 muxtar respublika çempionatı, 3 rayon açıq birinciliyi, 1 beynəlxalq turnir keçirilib, federasiya idmançılarının asudə vaxtlarının səmərəli təşkili məqsədilə onların muxtar respublikada fəaliyyət göstərən muzeylərə gəzintiləri və Ağbulaq İstirahət Mərkəzində "Yay məktəbləri" təşkil olunub.

Azad Cabbarov çıxışının sonunda bildirib ki, 2019-cu ilin dekabr ayında Dünya Şotokan Federasiyasının və Türkiyə Cümhuriyyəti Karate Federasiyasının prezidenti Esat Delihasanın rəhbərlik etdiyi nümayəndə heyətinin və Azərbaycan Milli Karate Federasiyasının prezidenti Yaşar Bəşirovun muxtar respublikada olmaları, burada digər idman sahələri ilə yanaşı, karate idman növünün də inkişafını yüksək qiymətləndirmələri, Dünya Şotokan Federasiyasının prezidenti və idarə heyətinin qərarına əsasən Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının sədri Fazil Ələkbərovun Dünya Şotokan Federasiyasının birinci vitse-prezidenti seçilməsi muxtar respublikanın idman həyatındakı mühüm hadisələrdəndir. Qazanılan uğurlar məqsədyönlü fəaliyyətin nəticəsidir.

Karate-do Federasiyasının sədri Fazil Ələkbərov çıxışında vurğulayıb ki, muxtar respublikada uğurla davam etdirilən Heydər Əliyev siyasi kursunun məntiqi nəticəsi olaraq bütün sahələr kimi, idman da hərtərəfli dövlət qayğısı ilə əhatə olunub.

Qeyd edilib ki, federasiya bu qayğıdan bəhrələnərək 2019-cu ildə də işini günün tələbləri səviyyəsində qurmağa çalışıb. Hazırda 14 məşqçinin rəhbərliyi altında 3 klub və 20 karate bölməsi fəaliyyət göstərir. 2016-cı ildə yaradılan "Nəqşicahan karate-do qızlar idman klubu"nun da fəaliyyəti genişləndiriləək ötən il Naxçıvan şəhərində daha bir bölmə açılıb. Hazırda 4 qız bölməsi fəaliyyət göstərir. 2019-cu ildə keçirilən beynəlxalq turnirlərdə qazanılan 7 qızıl, 12 gümüş və 12 bürünc medal qız idmançıların payına düşür. Bu gün muxtar respublikada karate idman növü ilə məşğul olanların 100-dən çoxu qızlardır.

Diqqətə çatdırılıb ki, federasiya ötən il muxtar respublikanın şəhər və rayonlarında 12 yarış, o cümlədən 1 beynəlxalq turnir keçirib. Bu yarışlarda yaxşı nəticə göstərən 4 nəfər istedadlı idmançı seçilərək yığma komandanın tərkibinə daxil edilib. Hazırda yığma komandanın tərkibində 20 idmançı davamlı olaraq məşq keçir. Federasiyanın idmançıları ötən il ərzində Türkiyə Respublikasının İstanbul və Rizə, Rusiya Federasiyasının Moskva, Ukrayna Respublikasının Xarkov, İran İslam Respublikasının Urmiya və Astara, Gürcüstan Respublikasının Tbilisi və Batumi şəhərlərində beynəlxalq turnirlərdə, həmçinin Rumıniyanın Buxarest şəhərində Dünya çempionatında, eləcə də Makedoniya Respublikasının Skopya şəhərində Avropa çempionatında iştirak edərək uğurlu nəticələr qazanıblar. Bundan əlavə, karateçilərimiz Bakı şəhərində təşkil olunmuş beynəlxalq turnirlərdə, yarışlarda da təmsil olunublar. Ümumilikdə, 2019-cu ildə bu idman növü üzrə idmançılar 1 dünya, 1 Avropa və 14 beynəlxalq çempionatlarda, 5 ölkədaxili yarışda və 12 muxtar respublika birinciliyində qüvvələrini sınayıblar. Həmçinin il ərzində seminar-treninqlər keçirilib, 142 nəfər idmançı kəmər imtahanlarına qatılıb. Onlardan 85 nəfəri küy dərəcələrinə, 1 nəfəri isə birinci Dan qara kəmərə layiq görülüb.

Federasiya sədri bildirib ki, karateçilərimiz 2019-cu il ərzində keçirilən yarışlarda 172 medala sahib olublar. Təkcə dünya və Avropa çempionatlarında, o cümlədən beynəlxalq turnirlərdə 31 qızıl, 44 gümüş, 67 bürünc medal qazanılıb. Göstərilən diqqət və qayğının bariz nümunəsi kimi, federasiyanın idmançısı, dünya çempionu Rafiq Hüseynlinin adı gənc istedadların "Qızıl kitabı"na salınaraq xüsusi aylıq təqaüdə layiq görülüb. Federasiyanın digər idmançısı Vüsal Seyidov Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən ilin ən gənc idmançısı seçilib.

Federasiya sədri yaradılan şəraitə görə məşqçi və idmançılar adından muxtar respublika rəhbərinə minnətdarlığını bildirib. Vurğulanıb ki, federasiya bundan sonra da qarşıya qoyulan vəzifələrin həyata keçirilməsində əzmlə çalışacaq, istedadlı idmançıların yetişdirilməsində səy və bacarığını əsirgəməyəcəkdir.

Sonra federasiyanın şəhər və rayon bölmələrində görülən işlər barədə məşqçi-müəllimlərin fikirləri dinlənilib, il ərzində fərqlənən idmançılar mükafatlandırılıb.

✍ **Ceyhun MƏMMƏDOV**

*Hər bir xalqın musiqi mədəniyyətinin göstəricilərindən biri də onun musiqi alətləridir. Bu alətlər bəşər tarixində insanın mənəvi aləminin təşəkkülündə əhəmiyyətli rol oynayıb. Əsrlərdən bəri musiqi inkişaf etdikcə müxtəlif melodiyaların ifası və ritmik müşayiəti üçün yeni alətlər yaradılır, mövcud olan alətlər isə daha da təkmilləşdirilir. Onların müxtəlif növlərinin geniş istifadəsi, şübhəsiz, zaman-zaman formalaşan və inkişaf edən zəngin incəsənətin olmasına dəlalət edir. Azərbaycan xalqına məxsus yaşı əsrlərə bərabər, dünyanın həsəd apardığı xalq çalğı alətləri vardır ki, bunlardan biri də muğam üçlüyünün ayrılmaz parçası, musiqi alətlərinin şahı hesab edilən tardır. Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti, ustad tarzən Zöhrab Axundov ilə xalq çalğı alətimiz olan tarın tarixi, Naxçıvanda yaşayıb fəaliyyət göstərmiş tarzənlər və yetişməkdə olan gənc ifaçılar haqqında danışdıq.*

## Ata-babalarımızdan bizə miras qalan tarzənlik sənəti layiqincə yaşadılır



***– Zöhrab müəllim, ilk olaraq xalq çalğı alətimiz tarın tarixi ilə bağlı söhbət açmanızı istərdim.***

Azərbaycan simli musiqi alətləri arasında texniki və dinamik imkanlarına görə müasir tar ən mükəmməl və təkmil çalğı alətidir. Dahi bəstəkar Üzeyir Hacıbəyov tarın texniki ifaçılıq imkanlarına, akustik səslənmə xüsusiyyətlərinə istinad edərək yazırdı: "Tar Şərq musiqi təhsilini artıra bilən alətlərdən ən qiymətlisi və ən mühümüdür". "Tar" sözünün lüğəti mənası tel, sap deməkdir. Başqa musiqi alətləri kimi, təbii ki, müasir tar da özündən əvvəlki qədim simli musiqi alətlərinin əsasında yaranmış və əsrlərboyu formalaşmışdır. Tarın adına orta əsr klassiklərimizdən Qətran Təbrizinin, Nizami Gəncəvinin, Məhəmməd Füzulinin və başqalarının əsərlərində rast gəlmək olur. Nizami Gəncəvinin "İsgəndərnamə" əsərində şair tarı belə təsvir edir:

*Müğənni, tək bircə gecə də çal tar,*
*Məni bu dar yolda əzabdan qurtar!*
*Bəlkə, genişlənsin, açılsın yolum,*
*Köçüm, bu daşlıqdan asudə olum...*

– Tar, əsasən, muğam üçlüyünün tərkibində (tar, kamança, qaval) aparıcı alət kimi istifadə edilib və bu gün də muğam sənətinin inkişafında müstəsna rol oynayır. Muğam operalarında solo oxumaları tarın müşayiəti ilə aparılır. Azərbaycan bəstəkarları tar ilə orkestr üçün bir çox irihəcmli konsertlər yazmışlar. Quruluş və forma etibarı ilə başqa simli musiqi alətlərindən fərqli olan tar, əsasən, üç hissədən – çanaq, qol və kəllədən ibarətdir.

XIX əsrin ikinci yarısında istedadlı musiqiçi Mirzə Sadıq tarı əsaslı surətdə yenidən qurdu. Həmin vaxta qədər tar sinədə yox, diz üzərində ifa edilirdi. Ondan əvvəl tarın qoluna 27-28 pərdə bağlanır, simlərin sayı isə 7-yə çatırdı. İstedadlı novator musiqiçi ilk dəfə olaraq tarın qolunu sədəflə bəzəmişdi. Bütün bu yeniliklərə görə Mirzə Sadıq haqlı olaraq "Azərbaycan tarının atası" sayılır.

***– Az öncə də qeyd etdiyimiz kimi, muğam üçlüklərimizi tar aləti olmadan təsəvvür edə bilmərik. Bu alətin muğam ifaçılığındakı rolu nədən ibarətdir?***

– Muğam sənətində tar bir neçə funksiya daşıyır. Bu baxımdan onun instrumental muğam, solo və vokal-instrumental muğam ifaçılığında müşayiətedici alət kimi iki funksiyası önə çıxır. Azərbaycan milli musiqi irsində geniş inkişaf etmiş solo ifa ilə yanaşı, müxtəlif tərkibli ansambl çalğısına da böyük yer verilir. Onu da qeyd edək ki, xalq çalğı alətləri üzrə ansambl ifaçılığı zəngin ənənələrə malikdir. Xanəndə, tar, kamança və qavaldan ibarət olan vokal-instrumental muğam ansamblında tar aparıcı əhəmiyyətə malik olub, ansamblın digər ifaçılarını – bir tərəfdən xanəndəni, digər tərəfdən kamançanı istiqamətləndirir və ümumi əlaqələndirici rol oynayır. Muğam ansamblının repertuarını muğam dəstgah, zərbi muğam, rəng və təsnif kimi janrlar təşkil edir və belə musiqi nümunələrini, sözün həqiqi mənasında, xanəndə və sazəndə ansamblının birgə yaradıcılıq məhsulu hesab etmək olar. Dahi bəstəkar və musiqişünas Üzeyir Hacıbəyli xanəndə və sazəndə dəstəsinin üzvlərini xarakterizə edərək yazırdı: "Baxüsus xanəndə bir çox şeir, qəzəl və təsniflər hifzində saxlamalıdır; tar çalan dəxi dəstgahların yollarını yaxşıca bilməlidir ki, xanəndəyə rəhbərlik etsin".

***– Muxtar respublikamızda bu qədim musiqi alətinin mahir ifaçıları kimlər olub?***

Muxtar respublikamızda tarixən mədəniyyətin hər bir sahəsi, xüsusilə də bu gün söhbət açdığımız tarzənlik bu sənətdə var olan fədakar insanlar hesabına daim inkişaf edib. Klassik ənənələrə uyğun ifa etdiklərimiz musiqilər həmin ustad tarzənlər hesabına ustaddan şagirdə ötürülmə prinsipi ilə bu günümüzə gəlib çıxıb. Mirzə Sadıq tərəfindən tar aləti təkmilləşdirildikdən sonra bu alətin ifaçıları yeni tarı qısa zaman kəsiyində mənimsədilər. XIX əsrin sonlarında Naxçıvanda artıq təkmilləşdirilmiş tarın mahir ifaçıları mövcud idi. Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi, Azərbaycan Jurnalistlər Birliyinin üzvü Rafail Kərimov "Naxçıvan musiqi mədəniyyəti tarixindən. Musiqi təhsili" monoqrafiyasında qeyd edir ki, bəstəkar Zülfüqar Hacıbəyov Naxçıvanda olduğu müddət ərzində öz yaradıcılığı ilə ətrafına instrumental ifaçılar toplayaraq teatrda ilk professional qrupu yaratmağa nail olur. Həmin qrupun tərkibində tarzənlərdən Adil Kəngərli, daha sonralar isə 1920-ci illərdə tarzən Tapdıq Hüseynov çıxış ediblər. Həmin dövrlərdə bu sənətkarlarla bərabər, Kamil Abdullayev, Yusif Əliyev, Heydər Təhməzbəyov, Şərur rayonundan isə Abbas Axundov və Əli Nağıyev tarzənlik sənətində iz qoymuş insanlardır. Onların davamçıları kimi Vahid Axundov, Səfər Rəcəbovu, Həsən Gülməmmədovu, Qılman İsayevi misal göstərə bilərik. O zaman musiqi məktəblərinin, ali təhsil ocaqlarının olmadığını nəzərə alsaq, əsl sənət fədailərinin bu sənətin yaşadılması üçün çəkdikləri əziyyətlərin fərqinə vararıq. Təkcə tarzən Səfər Rəcəbovun Naxçıvan şəhərində təşkil etdiyi tar dərnəyi bir çox məşhur ifaçının yetişməsinə səbəb olmuşdu. Həmin dövrlərdə tarzənlik sənəti tarixi mənbələrdə də göstərildiyi kimi, sadəcə, ustad-şagird prinsipi ilə öyrədilib. Bu sənətin inkişafında musiqi məclisləri və el şənliklərinin də müstəsna rola malik olduğunu qeyd etməliyik.

***– Naxçıvanda ilk musiqi məktəbi yaradıldıqdan sonra onun tanınmış tarzən kimi yetirmələri kimlər olub?***

Muxtar respublikamızda ilk musiqi məktəbinin yaradılması dahi bəstəkarımız Üzeyir Hacıbəylinin adı ilə bağlıdır. Belə ki, 1937-ci ildə onun xeyir-duası ilə Naxçıvan şəhərində musiqi məktəbi fəaliyyətə başlayır. Bu məktəb incəsənətin inkişafında yeni mərhələnin əsasını qoyur. Burada bacarıqlı və istedadlı tarzənlər, xanəndələr, bəstəkarlar yetişir. Onlar sırasında yer alan tarzənlərdən Əkrəm Məmmədlini, Nazim Quliyevi, Nazim Kazımovu, Aydın Məmmədovu, Arif Quliyevi, Ələkbər Ələkbərovu, Şəmsəddin Qasımovu, bu gün də peşəkar tarzən kimi fəaliyyətlərini davam etdirən yetirmələrdən isə Zeynalabdin Babayevi, Tağı Əhmədovu, Bəxtiyar Hümbətovu, İmamqulu Əhmədovu, Dünyamalı Dünyamalıyevi, Nadir Məmmədovu, Zəfər Rəhimovu, İlqar Hüseynovu, Elman Əliyevi və başqalarını misal göstərə bilərəm.

Daha sonra Naxçıvanın digər bölgələrində də musiqi məktəblərinin yaranması, eləcə də müxtəlif ansamblların, xüsusən də "Araz" Mahnı və Rəqs Ansamblının fəaliyyətə başlaması bu sənətin inkişafına təkan verdi. Çünki bu ansambl bir növ məktəb hesab olunurdu. Sonrakı illərdə Naxçıvan Musiqi Kollecinin, ən əsası isə Naxçıvan Dövlət Universitetində İncəsənət fakültəsinin yaradılması, müstəqillik illərində şəhər və rayonlarda uşaq musiqi məktəblərinin təkmilləşdirilməsi bu sənətin inkişafını zirvəyə aparacaq addımlar oldu.

***- Zöhrab müəllim, son olaraq tarzənlik sənətinin müasir inkişaf səviyyəsi haqqında düşüncələriniz...***

– Naxçıvanda musiqi mədəniyyətinin qədim tarixi var. Diyarımızın yetirdiyi görkəmli incəsənət adamları, sənətkarlar, fədakar insanlar, bir də hərtərəfli dövlət qayğısı sayəsində mədəniyyət sahəsi bu gün öz çiçəklənmə dövrünü yaşayır. Bu gün muxtar respublikamızda da gənc tarzənlər yetişir. Sərxan Abdullayev, Fətəli Axundzadə, Orxan Cabbarov, Cəlil İsmayılov, Əşrəf Abdullayev, Əşrəf Behbudov və Toğrul Həsənovu göstərə bilərik. Yaradılan şəraitdən, göstərilən dövlət qayğısından ruhlanaraq gənc tarzənlərimiz öz üzərlərində daim çalışır, musiqi mədəniyyətimizin inkişafı naminə var qüvvələrini əsirgəməyərək Azərbaycan musiqisini zənginləşdirirlər.

2012-ci ildə "Simli musiqi aləti tarın hazırlanma və ifaçılıq sənəti"nin UNESCO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ siyahısına daxil edilməsi ölkəmizdə qədim musiqi alətlərimizə göstərilən həssas münasibətin göstəricisidir. Məqsəd milli musiqimizi qorumaq, yaşatmaq, gələcək nəsillərə olduğu kimi təqdim etməkdir. Bu, muxtar respublikamızda da ən çox diqqət göstərilən məsələdir.

*- Müsahibə üçün sağ olun!*

✍ **Pərviz HACILI**

***İtmişdir***

Naxçıvan şəhəri, Y.Cabbarov küçəsi, 5 ünvanında yaşamış Orucov Aydın Şulan oğlunun adına olan 1140 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 87